Kaspi 2019. 21-23 sentyabr.
S.20.





Çarlz Bukovski

## ETİRAF

Ölümü gözləmək
bir pişik kimidir.
Mümkündür hər an çarpayının üstünə
atıla.
Gerçəkdən həyat yoldaşıma görə təəssüflənirəm mən
Görəcəkdir bu qurumuş canımı və
saralmış rəngimi
Tərpədəcəkdir bədənimi və sonra deyəcək:
"Hənk!"
Hənk susacaq.
Ölümüm deyil məni nigaran edən
Nigaranlığım həyat yoldaşımdandır
Ki, bu qalanmış boşluqlar içində
yalqız qalacaq məndən sonra.
İstərdim onu başa salam ki,
Yanında yatdığım bütün gecələr,
Hətta o boş-boş mübahisələr
Hamısı mənimçün möhtəşəmidi.
Və o çətin iki kəlmə ki, heç zaman
cəsarət edib deyə bilmədim.
Artıq məqamıdır deməyin
Səni sevirəm!

## İNDİ

İkinci mərtəbədə oturmuşam
Bezginəm
Hələ də bir yazıçıyam deyə göstərirəm
71 yaşında
Əl çəkmir bu lənətə gəlmiş qüssə
Beynimin hüceyrələrini ayırır bu həyat
Kitab rəfi arxamdadır
Ayağımı qaşıyıram
Və kəlmə axtarıram
İllərdir ki, qadınları, tənqidçiləri və
universitetləri incitmişəm özümdən
Tezliklə axmaq qurbağalar toy tutacaqlar
Üzür əllərim klaviaturanın səhifəsinin
üstündə
Bu həmin əzizimdir ki,
məni küçələrdən, parkların oturacağından yığıb gətirdi
O qədər dərs almışam ucuz otaqlardan ki,
heç zaman unuda bilmirəm

İkinci mərtəbədə oturmuşam
Bezginəm
Hələ də bir yazıçıyam deyə göstərirəm
71 yaşında
Yer üzünə gülürlər Tanrılar...
Yer üzünə gülürlər Tanrılar...
Yer üzünə gülürlər Tanrılar...

## BİR DAHİ İLƏ TANIŞ OLDUM

Bu gün bir dahi ilə tanış oldum qatarda
Altı yaşlarındaydı,
Yanımda oturmuşdu
Qatar sahil buyunca gedirdi,
Okeana yaxınlaşan kimi
O mənə baxıb, dedi: "Heç də qəşəng deyil"
Və ilk dəfə mən bunun fərqinə vardım.

## HADİSƏ VƏ SƏBƏB

Ən yaxşı insanlar, öz əllərilə ölürlər,
Yalnız buna görə ki,
başqalarının əllərindən qaçsınlar!
Və onlar ki, qalırlar,
Heç vaxt başa düşmürlər ki,
Niyə birisi gərək onların əlindən qaça.

## BİR MÖVZUNUN FAYDASI NƏDİR?

Müvəffəq ola bilməzlər onlar
Od içində yanarlar gözəllər
İntihar həbləri,
kəndir və başqa şeylər
Damarlarını kəsirlər
Pəncərədən atırlar özlərini
Gözlərinin bəbəyini oyurlar
Rədd edirlər sevgini
Rədd edirlər nifrəti.

Müvəffəq ola bilməzlər onlar
Taqətsizdi gözəllər
Kəpənəkdi onlar
Göyərçindi onlar
Sərçədilər...
Dözümləri yoxdur onların.
Bir nəhəng od alovu
O zaman ki, parkda qocalar şahmat oynayır
Bir alov, od püskürən bir alov
O zaman ki,
parkda günəş altında qocalar şahmat oynayır.

Otaqların küncündə tapılar gözəllər,
Büzüşmüş hörümçəklər arasında yalqızlıq...
Biz heç vaxt başa düşə bilməyəcəyik ki,
niyə tərk edilirik?!
O qədər ki, gözəlidilər

Müvəffəq ola bilməzlər onlar
Gənc çağında ölər gözəllər
Və tərk edərlər həyatın boşluqlarıyla pisliklər.

Parlaq və gözəl

Həyat, intihar və ölüm
O zaman ki,
parkda günəş altında qocalar şahmat oynayır.

## İNTİZAR

Bir kiçik sevgin olsun, pis deyil!
Bir çox kiçik həyatından
O ki, önəmlidir
Divarlar üzünə intizar çəkməkdir!
Mən bununçün doğuldum
Ki, ölülər xiyabanında qızılgül satam.

## BOŞ YER

Ürəkdə bir yer var,
Ki, heç zaman dolmur yeri
Bir boş yer
Və ən gözəl anlarda və
vaxtlarda belə,
bilirik ki, var.
həmişə olduğundan da çox
bilirik ki, var.
ürəkdə bir yer var
ki, heç zaman dolmur yeri
və biz
o boş yerdə
intizarda oluruq
intizarda oluruq...

**Tərcümə:**
**Ümid Nəccari**